# KİTAB VƏ CƏMİYYƏT

PROF.A.A.XƏLƏFOV
*Bakı Dövlət Universiteti*

*Dünyanın böyük mütəfəkkirləri, elm və mədəniyyət xadimləri bəşər mədəniyyətinin inkişafında kitabın əhəmiyyətini olduqca yüksək qiymətləndirmiş, kitabın şəninə bilik mənbəyi, cəmiyyətin inkişafının, tərəqqisinin əsas vasitəsi kimi fikirlər söyləmişlər.*

***Açar sözlər***: *Kitabxana və cəmiyyət, kitabxana və kommunikasiya, kitabxana və mütaliə.*

*Hər birimiz ilk növbədə ancaq kitab vasitəsilə təhsil almış, elmlərə yiyələnmiş, həyatda yaşamağa, fəaliyyət göstərməyə hazırlaşmışıq, ona görə də kitaba borcluyuq.*

Heydər Əliyev

Bəşər mədəniyyətinin inkişafının əsas vasitəsi olan kitab, cəmiyyətin yaranmasının erkən dövrlərində meydana gəlmiş, zəmanəmizə qədər cəmiyyətlə birgə addımlamış, formalaşmış, bəşəriyyətin yaddaşına çevrilmişdir. Məhz cəmiyyət maddiləşmiş bu yaddaş (kitab) vasitəsi ilə bəşəriyyətin yaratmış olduğu bilikləri nəsildən-nəsilə ötürməyə nail olmuşdur. Bu da kitabın müxtəlif informasiyaları, biliyi, elmi dünya görüşünü, ictimai-siyasi və tarixi problemləri və s. özündə ehtiva etməsi ilə əlaqədardır. Kitab cəmiyyətin maddi və mənəvi həyatını əks etdirməklə, sosial həqiqətin, obyektiv və subyektiv hadisəsi kimi cəmiyyət elminə; iqtisadiyyata, siyasətə, mədəniyyətə, əxlaqa, tərbiyə və təhsil sisteminə ciddi təsir göstərmiş, bəşər mədəniyyətinin təşəkkül və formalaşmasında yaxından iştirak etmişdir.

Məhz buna görədir ki, böyük filosof F.Bekon "kitabı zamanın dalğaları arasında ucub səyahət edən, öz qiymətli yükünü nəsillərdən-nəsillərə çatdıran fikir gəmisi"[1] adlandırmışdır. Filosofun qiymətli yük hesab etdiyi, biliklə yüklənmiş kitablardır.

Bəşər övladı yarandığı gündən biliyə can atır, çünki bilik insanın yaşamaq, yaratmaq, inkişaf etmək uğrunda apardığı mübarizənin əsas

---

[1] *Əli Polad.Üç min ilin hikməti. B., 2007, s. 334*

vasitəsidir. Biliksiz insan təbiət və cəmiyyət hadisələri ilə mübarizədə gücsüzdür. İnsan bilmədiyi şeylərdən qorxur, bilik isə hər cür qorxuya qalib gəlməkdə insana kömək edir. Cəmiyyətdə yaşamaq, cəmiyyətin üzvü olmaq, onun inkişafına öz töhfəsini vermək, mənəvi həyatını zənginləşdirmək, tərbiyə və təhsil prosesində yaxından iştirak etmək, elmə yiyələnmək insandan daim yeniləşən, təkmilləşən, daim dinamik inkişafda olan, əsaslı elmi bilik tələb edir. Çünki biliksiz insan təbiət və cəmiyyət qüvvələrinə qarşı mübarizədə olduqca gücsüzdür. Başqa sözlə, biliksiz insanı müharibə meydanındakı silahsız əsgərə bənzətmək olar. Kitab insana bilik verməklə yanaşı onu tarixi keçmişə aparır, bəşəriyyətin tarixi, keçdiyi yol haqqında, əcdadları haqqında, dünyanın görkəmli alimləri, yazıçıları, incəsənət və elm xadimləri haqqında ətraflı məlumat verir. Görmədiyi, eşitmədiyi şəxsiyyətlər, onların fəaliyyəti, əsərləri və tərcümeyi-halları ilə tanış edir. Dünyanı təlatümə salan təbiət hadisələri, müharibələr, dövlət başçılar, görkəmli sərkərdələrin fəaliyyətini göz önündə canlandırır. Beləliklə, kitab bəşəriyyətə keçmişi xatırlatmaqla bu günü, müasirliyi öyrənməkdə, gələcəyi proqnozlaşdırmaqda kömək edir. Bir latın məsəlində deyildiyi kimi, kitabların da müqəddaratı vardır. Kitabların müqəddaratı çox zaman insanların müqəddaratından daha heyrətamiz olur. Xalqların və dövlətlərin müqəddaratı kitabların müqəddaratında əks etdirilmişdir. Kitablar nəinki nağıl edib öyrədir, həm də müharibələrdə, inqilablarda, dini və elmi mübahisələrdə, toqquşmalarda, müxtəlif ideya və fikirlərin meydana gəlməsində iştirak edir.

Kitablar kralları devirməyə kömək etmiş, həm məzlumların həm də zalımların tərəfində müharibə etmişlər. Kitab bütün dini təlimlərin yaranmasında və təbliğində iştirak etmiş, bütün müqəddəs dinlər kitablar şəklində insanlara təqdim edilmişdir. Yahudi, xristian, müsəlman dinləri də- "Tövrat", "Bibliya" və "Qurani-Kərim"-də kitablar vasitəsilə insanlara çatdırılmışdır.

Kitab bəşəriyyətin yaratmış olduğu fikir və ideyaları, nəzəriyyələri, konsepsiyaları və elmi kəşfləri insanlara çatdırmağın əsas vasitəsidir. Deməli, kitab ancaq coğrafi mənanı yox, həm də zamanı birləşdirir. Kitabın və kitabxananın meydana gəlib formalaşması və inkişafı tarixi də dediklərimizi bir daha təsdiq edir.

Kitab tarixi cəmiyyət tarixinin xüsusilə mədəniyyət tarixinin ayrılmaz tərkib hissəsidir. Kitabın tarixi onu yaradan, inkişaf etdirən cəmiyyətin tarixi ilə əlaqədar öyrənilməli, kitabın inkişaf tarixinin qanunauyğunluqları cəmiyyətin tarixinin qanunauyğunluqlarına əsaslanmalıdır. İlk kitabın nə vaxt hansı ölkədə yaranmasını müəyyənləşdirmək mümkün olmasada dünya kitabşünas alimləri kitabın yaranması və onun kecdiyi keşməkeşli, daşlı-kəsəkli inkişaf yolu haqqında, dünyanın ümumi kitab tarixi haqqında qiymətli əsərlər yaratmağa, dünya kitabının keçdiyi yola işıq salmağa müvəffəq





olmuşdur.[2] Kitab tarixi bəşəriyyətin ən böyük kəşfi olan yazının və əlifbanın meydana gəlməsi ilə sıx əlaqədardır. Bəşəriyyətin yaratdığı abidələr içərisində yazı və əlifbanın kəşfi olduqca böyük tarixi əhəmiyyətə malikdir. Əlifbanın meydana gəlməsi bəşər tarixində birinci informasiya inqilabı olan bəşər yaddaşının qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi üçün şərait yaratdı, kitabın informasiya daşıyıcısı bilik və elm mənbəyi kimi inkişafına həlledici təsir göstərdi. Dünya kitabı əlyazma kitablarının sayının çoxalmasında və kitabın dünya səyahətinə çıxmasına, ölkələrarası sərhədlər yararaq beynəlxalq kitabın yaranmasına səbəb oldu və birinci informasiya inqilabının qələbəsini təmin etdi. Tərəqqiyə və inkişafa can atan bəşəriyyət cəmiyyətin inkişafında, mədəniyyətin, təhsilin, elmin yayılmasında kitabın böyük həlledici qüvvəyə malik olmasını tezliklə daha yaxından hiss etməyə başladı və kitabın yayılmasını, kitabın böyük tirajlarla buraxılmasını təmin etmək üçün informasiya texnologiyasının müasirləşdirilməsində yeni proseslərin yaranmasına təkan verdi. Nəhayət dünya elmi və texnikası XV əsrdə böyük bir ixtiranın-kitab çapını təmin edən çap maşınının kəşfini həyata keçirməyə müvəffəq oldu. 1445-ci ildə dünyanın ən böyük möcüzələrindən biri hesab edilən ilk kitab çap edildi.

Dünyada kitab çapının meydana gəlib, tədricən bütün dünyanı əhatə etməsi böyük mədəni inqilab olmaqla yanaşı həm də böyük informasiya inqilabı idi. Məhz bu inqilab bəşəriyyəti xoşbəxt və işıqlı gələcəyə aparan böyük sosial hadisə oldu. Əgər yazı insan dəstələrini cəmiyyətə çevirdisə, kitab çapı informasiyanın güclü amili kimi insanlara azad cəmiyyət qurmağa, demokratiyaya doğru irəliləməyə, elmə, təhsilə, mədəniyyətə yiyələnməyə güclü bir vasitə kimi şərait yaratdı.

A.Eynşteyn deyirdi: "Bir insanın fikirləri kitabın köməyi ilə milyonlarla insana çatdırıla bilər."[3] Ş. Monteskiyo kitabı keçmişi öyrənməyin əsas amili kimi qiymətləndirərək deyirdi: "Keçmiş həyatını heç vaxt geri qaytara bilməzsən, amma bir kitabın köməyi ilə dünyanın ən böyük alimlərinin ömür boyu əldə etdikləri təcrübəni qazana bilərsən".[4]

Görkəmli alim S.Smayls cəmiyyət tarixini öyrənmək üçün həmin cəmiyyətdə yaranan kitabların öyrənilməsini tövsiyə edərək yazırdı: "Bir cəmiyyətin mədəniyyətini, incəsənətini və fəlsəfəsini öyrənmək üçün o cəmiyyətin kitablarını oxuyub öyrənməliyik". [5] Böyük filosof Sokratın təbirincə, "Kitab mütaliəsi bir cəmiyyətin gündəlik vərdişinə cevrilsə, həmin cəmiyyət xoşbəxt olar". [6]

---

[2] *Л.И.Владимиров. Всеобщая история книги. М, 1988, 311 с.*
[3] *Əli Polad. Üç min ilin hikməti, B. 2007, s 330*
[4] *Yenə orda s. 333*
[5] *Yenə orda s. 334*
[6] *Yenə orda s. 335*

Kitab çapının başlanması özünün bir sıra xüsusiyyətləri ilə nəzər-diqqəti cəlb etməklə, bəşər mədəniyyətinin gələcək inkişafına bir çox qiymətli töfhələr vermişdir:

-Kitab çapının başlanması kitabı ayrı-ayrı siyasi, ictimai, dini və s. qurumların və təşkilatların inhisarından çıxardaraq ümumxalq malına çevirdi.

-Kitabın mütaliə dairəsini daha da genişləndirməklə, onun tirajını istənilən qədər artırmağa şərait yaratdı ki, bu da onun kütləviliyini artırdı.

-Əlyazma kitabları olduqca baha başa gəldiyindən onu əldə etmək cəmiyyətin kasıb təbəqəsinə müyəssər olmurdu.

- Kitab çapı bu böyük əskikliyi aradan qaldırdı. Kitab çapı təhsilin dini xarakter daşımasının qarşısını almaqla onun dünyəviliyinin geniş yayılmasına, demokratikləşdirilməsinə kömək etdi. Bilavasitə təhsilin təkmilləşməsinə xidmət edən dərsliklərin çapının artması, yeni-yeni dərsliklərin meydana gəlib formalaşması, təhsil sisteminin keyfiyyətcə yüksəlməsinə olduqca həlledici təsir göstərdi.

-Kitab çapının başlanması kitabı dinin (kilsənin) inhisarından çıxarmaqla onun dünyəviləşməsi üçün şərait yaratdı.

-Kitab çapı kitabı cəmiyyətin bütün üzvlərinin malına çevirməklə kitabın istifadə dairəsini xeyli genişləndirdi. Cəmiyyətdə kitab mütaliəsi sahəsində mövcud olan sosial ədalətsizliyin aradan qaldırılmasına böyük təsir göstərdi.

-Kitab çapının başlanması dünyada elmi biliyin yayılmasında, elmi tədqiqat materiallarının geniş tədqiqatçılar auditoriyasına çatdırılmasında, informasiyanın maddiləşməsində və daha geniş oxucu kütləsinin malına çevrilməsində mühüm rol oynadı.

-Kitab çapı iqtisadi inkişafı təmin edən, texniki tərəqqinin yayılmasında yeni texnologiyaya əsaslanan, yeni istehsalın təbliğində, yeni elmi coğrafi kəşflərin ümumiləşdirilməsində mühüm əhəmiyyət kəsb etdi.

-Kitab çapı nəşrlərin tipini, növünü daha da təkmilləşdirməklə, milli dillərdə ədəbiyyatın genişlənməsinə, orfoqrafiya qaydalarının təkmilləşməsinə, kitabın geniş kütlələrin məişətinə daxil olmasına şərait yaratdı.

-Çap kitabı ictimai şurun müxtəlif sahələrinin və dünya görüşünün formalaşmasına kömək etməklə sosial və ideoloji mübarizənin əsas silahına çevrildi. Kitab çapı mənəvi mədəniyyətin formalaşmasında, cəmiyyətin əxlaq normalarının təkmilləşməsində yaxından iştirak etməklə elmi biliyə can atan insanların mühüm köməkçisinə çevrildi.

-Kitab çapı ayrı-ayrı ölkələr arasında elmi və mədəni əlaqələrin yaranmasına və inkişafına ciddi kömək etməklə elmi və mədəni inteqrasiya prosesini daha da gücləndirməklə bəşəri mədəniyyətin formalaşmasına kömək etdi.





-Çap kitabı ümumbəşəri mədəniyyətin formalaşmasına, dünya xalqlarının mədəniyyətlərinin inteqrasiyasına ümumbəşəri mədəni və mənəvi dəyərlər sisteminin yaradılamsına və yayılmasına olduqca həll edici təsir göstərə bildi ki, bu da kitabı dünya mədəniyyətinin güclü silahına çevirdi.

-Əgər bəşəriyyət yazını kəşf etməklə birinci informasiya inqilabını etmişdisə, kitab çapını ixtira etməklə də ikinci informasiya inqilabını etdi ki, bu inqilab informasiyanın maddiləşməsinə və qloballaşmasına mühüm təsir göstərdi.

Dünyada kitab çapının başlanmasından bizi altı əsrdən artıq bir zaman ayırır. Keçmiş tarixə nəzər salarkən bir tarixi həqiqət diqqəti cəlb edir ki, məhz bəşəriyyət daimi kitab çapının daha da inkişaf edib formalaşmasını ön plana çəkmiş, onun daha da təkmilləşdirilməsi qayğısına qalmış, kitab çapı ənənələri nəsildən-nəslə qiymətli mədəni abidə kimi ötürülmüşdür. Cəmiyyətin inkişafı tarixində mühüm mərhələ təşkil edən XX və XXI əsrlərdə kitab mədəniyyətinin yüksəlməsində, onun biliyin, elmin, mədəniyyətin, təhsilin inkişafı sahəsində rol və əhəmiyyəti daha da yüksəlmiş, ümumbəşəri hadisəyə çevrilmişdir. Xüsusi ilə qeyd etmək lazımdır ki, informasiya cəmiyyəti kitab nəşri və yayılması prosesini daha da sürətləndirmişdir. İnformasiya cəmiyyətində kitab nəşri və yayılması prosesini daha da sürətləndirmişdir. İnformasiya cəmiyyətində kitab nəşri kəmiyyət etibarı ilə böyük dəyişikliyə daha praktiki xarakter daşımağa başladı. İnformasiya cəmiyyətində sürətlə yeni biliklər, yeni istiqamətlər yarandığı kimi, köhnə biliklər və bu bilikləri əks etdirən kitablarda sürətlə köhnəlməyə məruz qalırdı. Məhz kitabların köhnəlmə prosesi nəşriyyatları daha dinamik olmağa, köhnəlmiş kitabları əvəz edən yeni kitabları nəşr etməyə istiqamətləndirdi.

XX əsrin 60-70-ci illərində beynəlxalq təşkilatların apardığı sosioloji tədqiqatlarda çox maraqlı faktlar ortaya çıxmışdır. Oxucular keçən ildə nəşr edilən ədəbiyyatın 80%-ni, keçən onillikdəki ədəbiyyatın 90%-ni unudurlar. Müəyyən müddətdən sonra 1000 kitabdan 10-u yaşayır və yalnız onlardan biri uzunömürlü olur. Akademik A.Mirzəcanzadə bu prosesi "biliyin mənəvi köhnəlməsi" kimi qiymətləndirirdi. Bu baxımdan bəzi maraqlı faktlarda fikrimizi təsdiq edir. Beynəlxalq təşkilatların sosioloji tədqiqatlarına görə, bəşəriyyət şifahi nitqdən yazılı nitqə 500 milyon ilə, əlyazmasından çap dəzgahına 1000 ilə, çap dəzgahından televizora isə 500 ilə keçmişdir.

1550-ci ildən 1950-ci ilə kimi, yəni 400 illik müddətdə dünyada 30 milyon adda kitab nəşr olunmuşdur. Baş verən elmi-texniki inkişaf kitab nəşri sahəsində də möcüzələr yaratdı. 30 milyon kitab nəşr etməyə artıq dörd əsr yox, əvvəlcə 1950-1975-ci illər arasında 10 il lazım oldu. Hal-hazırda isə elmi informasiyanın həcmi beş ildə iki dəfədən çox artıb. Yuxarıda göstərdiyimiz möcüzəli rəqəmlar bəşər mədəniyyətinin mühüm sahəsi olan kitabın ümumdünya şöhrətini bir daha təsdiq etməklə kitabın qloballaşan dünyada

böyük nüfuzunu təsdiqləyir. Bu faktlar bir daha təsdiq edir ki, bəşəriyyət kitabı milli sərvət kimi qiymətləndirmiş, kitab mədəniyyətinin inkişafının hamisi kimi çıxış etmişdir. Milli sərvət olan kitablar onu yaradan xalqın milli sərvəti olmaqla yanaşı ümumbəşəri sərvətdir. Biliyin, elmin vətəni yoxdur. Bir ölkədə yaranmış elm bütün dünyaya məxsusdur. Dahilərin yaratmış olduğu elm, mədəniyyət tez bir zaman içərisində bütün bəşəriyyətin malına çevrilir. Məhz buna görədir ki, elmi nailiyyətləri əks etdirən kitablar ölməzdir. Dünyanın böyük dahi şaxsiyyətlərinin, filosoflarının, alimlərinin, yazıçı və şairlərinin yaratdığı sənət inciləri, bilik mənbəyi olan kitablar onların ruhudur. Ruh isə ölməzdir. Min illər bundan əvvəl dünyanın dahi şəxsiyyətlərinin ölməz, həmişəyaşar əsərləri bu gündə insanlara, onların elminə, təhsil və tərbiyəsinə, mədəni inkişafına xidmət edir. Kitabı dünya mədniyyətinə bəxş edən insanların milli mənsubiyyətindən asılı olmayaraq, kitablar dünyanın bütün millətlərinə, bəşriyyətə xidmət edir. Deməli, hər şey insanlara qalır və insanlığa xidmət edir. Bəşəriyyətin bütün həyatının məskən saldığı kitab ölməzdir. Nəsillər, insanlar, dövlətlər gəlib gedir, kitab isə qalır. Zəmanəmizdə kitabsız mədəniyyətdən və mədəni tərəqqidən danışmaq olmaz. Kitab elm və sənət abidəsidir. Böyük filosoflar, şairlər, alimlər kitabla yaşayırlar. Nizami "Xəmsə" ilə “Tolstoy” “Hərb və sülh" ilə, Sabir "Hophopnamə" ilə yaşayır. Kitab olmasaydı, bəşəriyyətin böyük simaları ulduzlar kimi öz vaxtlarında parlayıb, sonra sönüb gedərdilər (S.Rəhimov).

Dünya mədəniyyəti xəzinəsinə böyük incilər bəxş etmiş Azərbaycan xalqının böyük və zəngin mədəniyyət tarixi vardır. Azərbaycan xalqının zəngin mədəniyyəti içərisində kitab mədəniyyəti xüsusi yer tutur. Dünyanın sivil xalqları içərisində özünə məxsus yeri olan xalqımız, həmişə kitabı sevmiş, onu qoruyub saxlamış, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürmüş, kitab mütaliəsindən bəhrələnmiş, kitabı müqəddəs hesab etmiş bir xalq olmuşdur. Xalqımızın yaratmış olduğu əlyazma kitablar, çap kitabları beynəlxalq aləmdə özünə məxsus qiyməti yer tutmuş, dünya kitabxanalarının kitab fondunu zənginləşdirən kitablar olmuşdur. Ölkəmizdə kitab xalqın məişətinə daxil olmuş, yeni cəmiyyət quruculuğunun əsas vasitəsinə çevrilmişdir.

Azərbaycan yüksək kitab mədəniyyətinə, kitabın saxlanılmasında, nəsildən-nəslə ötürülməsində, kitabdan istifadə etmək, mütaliə etmək sahəsində həmişə fərqlənmişdir.

Ölkəmizdə kitab nəşrinin olduqca gec başlanmasma baxmayaraq, Azərbaycan əlyazma kitabları olduqca böyük tirajlarla hazırlanmış, həm ölkədə həm də xaricdə böyük şöhrət qazanmışdır. Azərbaycanda kitab yayanlara, kitab toplayanlara, kitab mütaliə edən insanlara həmişə hörmətlə yanaşılmışdır . Məhz ona görədir ki, zaman-zaman ölkəmizdə zəngin ictimai, şəxsi, dövlət və dini kitabxanalar yaranmışdı. Azərbaycan kitabxanaları milli kitablarla yanaşı dünya xalqlarının kitabları





ilə zənginlşməyə meylli olmuş, beləliklə də dünya ölkələri ilə kitab mübadiləsi ön plana çəkilmişdir.

Həm Sovetlər birliyi dövründə, həm də müstəqillik illərində Azərbaycan kitab ölkəsi kimi şöhrət tapmış kitabın nəşri və yayılması, əhali arasında mütaliə prosesinin genişlənməsi sahəsində ciddi uğurlar əldə edilmişdir.

XX əsrin II yarısından başlayaraq Azərbaycan xalqı kitab mütaliəsi sahəsində Sovetlər ittifaqı xalqları içərisində öncül mövqeyə çıxa bilmişdi. Ancaq XX əsrin sonlarından başlayaraq respublikamızda kitab nəşrinə və kitab mütaliəsinə digər xarici ölkələrdə olduğu kimi maraq azalmağa başladı. Məhz buna görə də bu məqalədə respublikada kitab mədəniyyətinə mənfi təsir göstərən meyllər və bunların aradan qaldırılması haqqında öz münasibətimizi bildirməyə səy etdik.

Bu gün cəmiyyətdə tez-tez müzakirə obyekti olan kitab nəşri, kitab yayımı və mütaliə problemləri ilə bağlı müxtəlif suallarla rastlaşırıq: “Müasir gənclər nə üçün kitab oxumur?”, “Əhalinin mütaliəsi niyə aşağı düşüb?”, “Nə üçün az oxuyurlar?”, “Ümumiyyətlə, kitab oxuyan varmı?”. Əlbəttə, bu xarakterli suallar hər hansı bir elmi əsasdan uzaq olsa da, konkret şəxsin təəssüb hissindən irəli gəlir. Lakin problemin ciddiyyəti həmin məsələlərə təəssüblər kontekstində baxılmasına qətiyyən yol vermir. Ona görə də bu gün sahə mütəxəsisslərinin məqsədli tədqiqatlarına ciddi ehtiyac yaranmışdır. Yalnız əsaslı elmi təhlillər nəticəsində Azərbaycanda kitab nəşri, kitab yayımı və mütaliə problemləri ətrafında baş verən proseslərin həqiqi mənzərəsinin yaradılması və mövcud vəziyyətin düzgün qiymətləndirilməsi mümkündür. Azərbaycan xalqının kitaba münasibəti tarixi inkişafında Xaqaninin, Nizaminin, Nəsirəddin Tusinin, Abbasqulu ağa Bakıxanovun, Mirzə Fətəli Axundzadənin, Səməd Vurğunun timsalında yüzlərlə misallarla ifadə etmək olar. Sovetlər dövründə də Azərbaycan oxucusu qabaqcıl oxucular sırasında idi, əhalinin səviyyəsi yüksək və əhatəli idi. Bu dövrdə mütaliənin əsas təşkilatşısı kimi kitabxanalar çıxış edirdilər və kütləvi mütaliənin təşkilində, oxucu sorğularının öyrənilməsi və ödənilməsi xeyli təcrübə əldə etmiş, uğurlar qazanmışdır. Kitabxanalar sosial institut olaraq cəmiyyətin digər təsir mexanizmləri ilə inteqrasiyada öz məqsədlərinə çatdırdı. Dövlət Statistika İdarəsinin məlumatına görə, Sovet Azərbaycanında 198 kitab mağazası, çoxlu sayda stasionar və səyyar kitab köşkləri fəaliyyət göstərirdi. Kitabın yazılmasından, çapından, yayılmasından tutmuş oxucunun əlinə çatana qədər keçdiyi yol ciddi nəzarət altında idi. Kitab siyasi, ideoloji, elmi və sosial təsir gücünə malik güclü bir vasitə idi və o zaman bunu yaxşı başa düşürdülər. Bəs bu gün vəziyyət necədir? Təəssüf ki, bəzi uğurlara baxmayaraq, bu gün həmin sahələrdə ciddi problemlər öz həllini gözləməkdədir. Məlumdur ki, Sovet dövründə bu funksiyanı dövlət həm təmin edir, həm də dəstəkləyirdi. Bu gün

kitab nəşri və yayımı istiqamətində zəngin təcrübəsi olan bir sıra inkişaf etmiş ölkələrdə rəsmi qeydiyyatdan keçmiş nəşriyyatlar ciddi nəzarət altında fəaliyyət göstərir, öhdəçiliyi olan məcburi nüsxələri müəyyən kitabxanalara təqdim etmədiyi halda məhsulunu bazara çıxara bilmir, müəllif hüquqlarına riayət edir, istehlak bazarını öyrənir, müəlliflərə ikitərəfli və çoxtərəfli müqavilə münasibətlərinə daxil olur. Doğrudur, Azərbaycan qanunvericiliyində də qeyd olunan şərtlər mövcuddur. Lakin onun işlək mexanizmi hələ də hazırlanmayıb. Azərbaycanda oxucu istehlakının böyük bir hissəsi orta məktəblər üçün dərsliklərin nəşridir ki, bu problem ölkədə böyük uğurla öz həllini tapmışdır. İkinci mərhələdə bu işlər ali məktəblər səviyyəsində tətbiq olunmalı idi. Çünki ali məktəb dərslikləri unikal hadisədir. Bu nəşrlərə tələblər yüksək olsa da, onların istehlakı az, kommersiya əhəmiyyəti isə yox dərəcəsindədir. Ali məktəb dərslikləri predmetdən asılı olaraq hər 3-5 ildə baş verən dəyişikliklər və elmi yeniliklərlə əlaqədar yeniləşmək məcburiyyətindədir. Nəzərə almaq lazımdır ki, Azərbaycanda ali məktəb dərsliklərinin tirajı orta hesabla maksimum 200-300 nüsxə planlaşdırılır. Bu kitabların potensial alıcısı isə əsasən tələbələrdir ki, onların da qabiliyyəti ənənəvi olaraq aşağıdır. Bakı Dövlət Universiteti bu problemin həlli istiqamətində xeyli iş görməkdədir. Son illərə qədər tələbələr müxtəlif elm sahələrinə dair dərslikləri rus dilində oxumaq məcburiyyətində idilər, lakin artıq Bakı Dövlət Universitetinin alimləri Azərbaycan dilində ilk dəfə bir çox orijinal dərslik və dərs vəsaitləri yazaraq çap etdirmişlər. Bununla belə, həmin kitablar gündən-günə artan tələbatı və ehtiyacı ödəyə bilməz. Belə olan halda isə, əlbəttə, dövlət dəstəyinə ehtiyac duyulmaqdadır.

Ali məktəblər dərsliklərin, dərs vəsaitlərinin, eləcə də monoqrafiyaların yazıldığı potensial elmi mərkəzlərdir. Bu məhsullar tədrisə cəlb olunması ilə yanaşı, geniş təbliğata məruz qalmalı və beynəlxalq inteqrasiyada iştirak etməlidir. Bu baxımdan bütün ali məktəblərin nəzdində kitab yayım mərkəzlərinin fəaliyyət göstərməsi artıq günün tələbidir. Çünki belə yayım mərkəzləri daxili məhsulun təbliği ilə yanaşı, dünya təcrübəsinin innovativ təkliflərinin müxtəlif kanallarla ali məktəbin müəllim və tələbə heyətinə operativ şəkildə çatdırılmasını təmin edir, müasir reytinqlər bazarına təsir edən elementlərin akkumulyasiyasını həyata keçirir. Arzu edirik ki, Azərbaycan Respublikasının Nazirlər Kabineti orta məktəb dərsliklərinin nəşri üçün vəsait ayırdığı kimi, ali məktəb dərsliklərinin nəşri üçün də vəsait ayırsın. Belə bir qərarın qəbul edilməsi həmin sahədə əsaslı dönüş yaradılmasına səbəb ola bilər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı regionların inkişafı üzrə Dövlət Proqramı çərçivəsində rayonlarımızın siması köklü şəkildə dəyişilmiş, gözəlləşmiş, onlar iqtisadi inkişaf yoluna qədəm qoymuşlar. Respublikamızın sənayeləşməsi prosesinin sürətlə həyata keçirilməsi müstəvisində əhalinin mütaliə ehtiyaclarının





ödənilməsi məqsədi ilə hər bir rayon mərkəzində, heç olmasa, bircə kitab evinin və ya kitab mağazasının açılmasını, kitab yayımının və kitab təbliğinin təmin olunmasını da gözləmək olardı. Belə ki, kitab mağazaları da kitabxanalarla yanaşı, milli ideologiyanın təbliğat müəssisələridir və kitabxanalara nisbətən daha operativ informasiya xidməti göstərməyə qadirdir. Təəssüf ki, hələlik bu sahədə irəliləyiş nəzərə çarpmır. Müasir şəraitdə respublikamızda kitab mədəniyyətinin yüksəldilməsində nəşriyyatlar qarşısında böyük vəzifələr durur. Nəşriyyatlar yaradıcı ocaq olmaqla bərabər həm də xalqın mədəni yüksəlişi, maariflənməsi, savadlanması, informasiyalaşdırılması işinin mərkəzində duran müəssisələrdən biridir. 2000-ci ildə qəbul edilmiş "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərildiyi kimi, "Nəşriyyat əsas fəaliyyəti müəllifə sifariş verməklə və ya müəllifin (müəlliflik hüququ sahibinin) sifarişi ilə nəşriyyat məhsullarının hazırlanması, istehsalı və (və ya) yayımından ibarət olan ixtisaslaşmış mədəniyyət müəssisəsidir". Azərbaycanda zəngin tarixə və təcrübəyə malik nəşriyyatlar mövcuddur, əhalinin informasiya tələbatının ödənilməsində kitabxanalarla birgə fəaliyyət göstərən nəşriyyatlar müxtəlif dövrlərdə şətin sınaq qarşısında qalsalar da, daim öz vəzifələrinin öhdəsindən ləyaqətlə gəlmək üçün bütün səylərini göstərmişlər. XX əsrin sonlarında cəmiyyətin hayatında baş verən dəyişikliklər, yeni iqtisadi münasibətlərə keçid digər sahələr kimi nəşriyyat işinə də öz təsirini göstərmişdir. Azərbaycan müstəqillik qazandıqdan sonra respublikada dövlət nəşriyyatları ilə yanaşı, özəl nəşriyyatların da fəaliyyətə başlaması əhalinin əsas informasiya mənbəyi olan kitab istehsalı işinin problemlərini aradan qaldırmağa kömək etdi. Lakin onu da qeyd etmək lazımdır ki, dövlət nəşriyyatlarının fəaliyyətindəki durğunluq, özəl nəşriyyatların isə daha çox biznes maraqlarından çıxış etmələri ümumilikdə kitab nəşri işinə öz mənfi təsirini göstərməkdədir. Bu da son nəticədə kitab bazarında təsadüfi kitabların çoxalmasına, oxucuların onlara lazım olan informasiya əldə edə bilməməyinə, əhalinin kitab və kitabxanalardan uzaq düşməsinə səbəb olur. Bu iki informasiya ocağının-kitabxana və nəşriyyatları öz işlərini necə qurmasından bilavasitə cəmiyyətin inkişaf səviyyəsi, informasiyalaşdırılma dərəcəsi birbaşa asılıdır. Mühüm informasiya ocağı kimi istər nəşriyyatlar, istərsə də kitabxanalar səmərəli fəaliyyət göstərmək, cəmiyyətin informasiya tələbatını lazımınca ödəmək üçün bir-biri ilə yüksək səviyyədə təşkil olunmuş qarşılıqlı əlaqələrə malik olmalıdırlar. Çünki cəmiyyətin informasiya tələbatının düzgün qiymətləndirilməsi, informasiya daşıyıcılarının öz oxucusunu tapması birbaşa bu əlaqələrdən asılıdır. Lakin təəssüf ki, indiki şəraitdə nəriyyatlar və kitabxanalar arasındakı qarşılıqlı əlaqə istənilən səviyyədə deyil.

Həm "Kitabxana işi haqqında", həm də "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının qanunları hər iki informasiya müəssisəsinin

qarşılıqlı əlaqələri üçün gözəl şərait yaratsa da, ötən dövr ərzində istər nəşriyyatlar, istərsə də kitabxanalar bu şəraitdən səmərəli istifadə etməmiş, bir-biri ilə sıx əlaqə yarada bilməmişlər. Bu gün nəşriyyatlar və kitabxanalar arasındakı əlaqələrdə ən böyük problem nəşr olunmuş kitabların kitabxana fondlarına düşməməsidir. Ölkədə fəaliyyət göstərən dövlət və qeyri-dövlət nəşriyyatları çap etdikləri hər bir kitab və ya digər çap məhsulundan dörd sayda məcburi nüsxəni kitabxanalara göndərmək işinə məsuliyyətsiz yanaşır, kitabxanalar isə məcburi nüsxələrlə maraqlanmırlar. 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" qanunun 15-ci maddəsində deyilir: "Milli kitabxana qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar və Bakı Dövlət Universitetinin kitabxanası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada ölkədə nəşr edilən çap məhsullarının məcburi nüsxələrini almaq hüququna malikdir." Dövlət və qeyri-dövlət nəşriyyatları, nəşriyyat fəaliyyəti ilə məşğul olan poliqrafiya müəssisələri və digər hüquqi şəxslər tərəfindən buraxılan çap məhsullarından Milli Kitabxanaya dörd pulsuz məcburi nüsxə, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanalara, repúblika əhəmiyyətli elmi-sahəvi kitabxanalara, Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasına və Bakı Dövlət Universitetinin Elmi Kitabxanasına profilinə uyğun olaraq 2 pulsuz məcburi nüsxə, Azərbaycan Respublikasında nəşr olunan bütün qəzet və jurnal redaksiyalarına isə 2 pulsuz məcburi nüsxə göndərməlidir. "Nəşriyyat işi haqqında" qanunun 22-ci maddəsində isə yazılır: "Nəşriyyat məhsulunu və digər çap məhsulları hazırlayan müəssisə sifarişçinin hesabına buraxılmış hər bir nəşrin pulsuz məcburi nüsxələrini Azərbaycan Respublikasının Milli Kitabxanasına, Kitab Palatasına, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının və qanunvericilikdə nəzərdə tutulmuş digər orqanların kitabxanalarına, ödənişli nüsxələri isə müəyyən edilmiş qaydada müvafiq idarə, müəssisə və təşkilatlara göndərir. Məcburi nüsxələr nəşrin ümumi tirajına daxildir." Göründüyü kimi, hər iki qanunda müəyyən edilmiş sayda məcburi nüsxələrin kitabxanalara göndərilməsi təsbit olunmuşdur. Bu qanunlarda kitabxanalar və nəşriyyatlar arasında qarşılıqlı əlaqələr üçün münbit şərait yaradılmışdır. Çox təəssüflər olsun ki, müasir dövrümüzdə heç də nəşriyyatların hamısı buna əməl etmir. Nəşriyyatlar məcburi nüsxələrin göndərilməsi işinə, ümumiyyətlə, məhsuliyyətsiz yanaşırlar. Apardığımız araşdırmalardan belə məlum olmuşdur ki, özəl nəşriyyatların çox az qismi bu tələbə əməl edir. Naşirlər bunun səbəbini sifariş əsasında fəaliyyət göstərmələri, maliyyə imkanlarının zəifliyi ilə əlaqələndirirlər. Lakin unutmaq lazımdır ki, "Nəşriyyat işi haqqında" Qanunun 22-ci maddəsində göstərildiyi kimi, məcburi nüsxələr nəşrin ümumi tirajına daxildir. Yəni kitabxanalara göndəriləcək nüsxələr sifariş əsasında





fəaliyyət göstərən nəşriyyatlarda sifarişçinin ümumi tirajından götürülür. İstənilən sifarişçi müəllif isə öz kitabının mərkəzi kitabxanaların fondlarına düşməsini məmnuniyyətlə qarşılayırlar. Deməli, bu nüsxələr nəşriyyatların maliyyə vəziyyəti ilə heç bir halda bağlı deyildir. Bütün bunlardan belə məlum olur ki, məcburi nüsxələrin kitabxanalara göndərilməsi nəşriyyatların məsələyə soyuq munasibəti-nəşriyyat-kitabxana əlaqələrinin onların fəaliyyətinə göstərəcəyi müsbət nəticənin düzgün qiymətləndirilməməsidir. Beləliklə, hər iki qanuna əsasən ölkəmizin 12 kitabxanası: M.F.Axundzadə adına Milli Kitabxana, Prezident Kitabxanası, Milli Məclisin Kitabxanası, Respublika Elmi Texniki Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası, Respublika Elmi Tibb Kitabxanası, Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası, F.Köçərli adına Respublika Uşaq Kitabxanası, C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası, Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası pulsuz məcburi nüsxələr almaq hüququna malikdir. Bu nüsxələri ayırmaq isə nəşriyyatlar üçün heç bir maliyyə çətinliyi törətməz, nəticədə mədəniyyətimiz qazanar, xalqımızın milli sərvəti olan kitabxanalar zənginləşər. Amma əfsuslar olsun ki, bu sahədə vəziyyət heç də ürəkaçan deyil!... Fikrimizcə, məcburi nüsxələrin kitabxana fondlarına düşməməsində məcburi nüsxə almaq hüququ olan kitabxanaları da günahkar hesab etmək olar. Çünki kitabxanaların komplektləşdirmə şöbələri məcburi nüsxələrin alınması üçün heç bir cəhd göstərmir, əsasən gözləmə mövqeyi tuturlar. Yaxşı olar ki, məcburi nüsxə almaq hüququ olan hər bir kitabxanada xüsusi qurumlar yaradılsın və bu qurum vaxtaşırı olaraq nəşriyyatlarla əlaqə saxlasın, nəşr olunmuş kitab və digər çap məhsullarını nəşriyyatlardan alaraq kitabxanalara təqdim etsin. Belə olan təqdirdə hər bir kitab kitabxana fondlarına düşər, xalqın istifadəsinə verilər. Kitab xalqın, millətin mənəvi sərvəti, gələcəyidir. Ondan hamının istifadə edə bilməsi üçün isə ən sadə yol kitabın kitabxana fondlarına düşməsidir. Bu baxımdan hər bir nəşriyyat çap etdiyi kitabların kitabxana fondlarına düşməsində, cəmiyyət arasında yayılmasında maraqlı olmalıdır. Hələ XX əsrin əvvəllərində xalqın maariflənməsi işində xüsusi xidmətləri olan "Orucov qardaşları mətbəəsi" nəşr etdiyi əsərlərdən kitabxanalara hədiyyə verirdi. Elə bunun nəticəsidir ki, həmin dövrdə nəşr olunmuş kitablar bu günümüzə qədər gəlib çatmışdır və elə buna görə də Orucov qardaşları indi də xoş duyğularla yad edilir. Müasir dövrdə isə nəşiryatlarımız nəinki kitab hədiyyələrini, heç məcburi nüsxələri belə kitabxanalara təqdim etmirlər. Sovetlər məkanında bütün nəşriyyatlar dövlətə məxsus olduğundan, nəşriyyata rəhbərlik edən dövlət qurumları illik nəşriyyat planları tərtib edir, bu planları kitabxanalarda və digər ideoloji müəssisələrdə ictimaiyyətin iştirakı ilə geniş müzakirə edir, hər bir elm sahəsinə dair kitabların tirajını birlikdə müəyyənləşdirirdilər. Hazırda respublikamızda 100-ə yaxın nəşriyyat

M.F.A... Azərbaycan Milli K...

fəaliyyət göstərir ki, onlarında çoxu özəl, az bir hissəsi isə dövlət, faktiki olaraq, iştirak etmir, nəşriyyatlar isə bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq nə istəsələr, onu da nəşr edib yayırlar. Kitabların tirajının müəyyənləşdirilməsində də heç bir qanunauyğunluq gözlənilmir, oxucu tələbatı nəzərə alınmır. Ən böyük bəla isə kitabların oxuculara məqsədyönlü şəkildə çatdırılmaması ilə bağlıdır. Bakıda və rayonlarımızda böyük şəbəkələri olan kitab mağazalarının, demək olar ki, əksəriyyəti ləğv edilmiş, qalan mağazalar isə darısqal binalara köçürülmüşdür. Təəssüf ki, həmin azsaylı kitab mağazaları ilə nəşriyyatların əlaqəsi yoxdur. Belə bir şəraitdə isə əsasən az tirajla nəşr olunan kitab geniş oxucu kütləsinə gedib çata bilməz. Bəşəriyyətin yaddaşı hesab edilən kitabxanalar da ayrılan vəsaitin azlığı üzündən lazımi kitabları almaq və onları geniş oxucu kütləsi arasında geniş yaymaq imkanından məhrumdur. Halbuki nəşr olunan kitablar mütləq kitabxanalara verilməlidir ki, kitabxanalar onları öz fondlarında əbədiləşdirsin, gələcək nəsillərə ötürülməsi mümkün olsun. Millətinin, xalqının gələcəyi qeydinə qalan hər bir ziyalı, kitab müəllifi, nəşriyyat işçisi bu vacib amili mütləq nəzərə almağa borcludur. Hazırki şəraitdə kitabxanaların əksəriyyətinin nəşr olunmuş kitablar haqqında məlumatları olmur. Təəssüf doğuran hallardan biri də respublikada kitab nəşri statistikasının aparmamasıdır. Ölkədə istehsal olunan bütün məhsulların uçotu aparılsa da, ildə nə qədər kitabın nəşr olunduğu barədə dəqiq məlumat yoxdur. Məsələn, Dövlət Statistika Komitəsinin təxminən on il əvvəl nəşr etdirdiyi "Müstəqil Azərbaycan-10" toplusunda nədənsə kitab istehsalı haqqında heç bir məlumata rast gəlmədik. Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş Kitabxana Kollektoru işini elə qurmalıdır ki, kitablar respublikanın bütün kitabxanalar şəbəkəsinə yayıla bilsin. Kitabxanalarla əlaqələrin zəifliyi nəşriyyatlar üçün bir sıra problemlər yaradır. Məlumdur ki, kitabxanalar mədəniyyətin mühüm və ayrılmaz sahəsidir. Hər gün minlərlə insan bu mədəniyyət ocağından istifadə edir, informasiya toplayır, naşirlər məhz kitabxanalarda oxucularla ünsiyyət qurur, onları maraqlandıran ədəbiyyatı müəyyənləşdirə bilirlər. Bunun üçün nəşriyyatlar vaxtaşırı kitabxanalarda tədqiqatlar aparılmalı, sorğu anketlərindən istifadə etməklə oxucu tələbatını müəyyənləşdirməlidirlər. Apardığımız müşahidələrə görə, heç bir nəşriyyat kitabxanalarda belə sosioloji tədqiqat aparmamışdır. Halbuki belə tədqiqatları aparmaq üçün heç bir maneə yoxdur və buna maliyyə vəsaiti də tələb olunmur. Kitabxanalarla əlaqələrin zəif olması nəticəsində nəşriyyatlarla oxucular arasında ünsiyyət qurulmur və buna görə oxucu tələbatı düzgün qiymətləndirilmir. Deməli, nəşriyyatlar istehsal etdikləri kitabların kitabxanalarda reklamını təşkil etsələr, bu onlar üçün ciddi inkişafa səbəb olar. Kitab sərgiləri, afişalar, plakatlar, prospektlər, təqdimat mərasimlərinin keçirilməsi bu işlərin mərkəzində durmalıdır. Çox təəssüflə qeyd etmək





lazımdır ki, bir-iki hal istisna olmaqla nə nəşriyyatlar, nə də kitabxanalar belə reklam işlərinin əhəmiyyətini başa düşməyərək bu sahədə heç bir addım atmırlar. Ancaq tarixə nəzər salsaq, görərik ki, həm kitabxanalar, həm də nəşriyyatlar tarixən bir-birinin imkanlarından səmərəli istifadə edərək, kitabın və mütaliənin reklamına çox böyük diqqət göstəriblər.

Hələ əsrin əvvəllərində adını Azərbaycan kitabçılıq işinə qızıl hərflərlə yazdıran "Orucov qardaşlarının mətbəəsi"ndə qardaşlardan biri Qənbər bəy dövrü mətbuat, digər kütləvi yerlərlə yanaşı, kitabxanalarda da buraxdıqları kitabların reklamı ilə məşğul olur, vaxtaşırı həmin kitablar haqqında qəzetlərdə kiçik elanlar yerləşdirir, kitabxanalarda kitabların təqdimatı və müzakirələrini keçirirdilər. "Orucov qardaşları mətbəəsi" oxucular arasında kitabların təbliği məqsədilə vaxtaşırı biblioqrafik göstəricilər də buraxır və kitabxanalarda yayırdılar. 1912 və 1914-cü illərdə onlar özlərinin nəşr etdikləri kitabları sahələr üzrə qruplaşdıraraq, qısa annotasiya ilə siyahısını çap etdirmişlər. Digər nəşriyyatlar da bu yolla təbliğini edirdilər. Kitabxanalar, həmçinin nəşriyyatların marketinq fəaliyyətinin qurulmasında və çap məhsullarının reklamında da böyük rol oynaya bilər. Çünki reklam vəsaitlərindən (məsələn, qəzet, jurnal, televiziya, radio və s.) fərqli olaraq bura yalnız kitabsevənlər gəlir. Digər tərəfdən, bu gün maliyə ehtiyatları heç də ürəkaçan olmayan nəşriyyatlar üçün kitabxanalarda öz kitablarını reklam etmək çox sərfəlidir. Hazırda kitab sərgiləri, afişalar, plakatlar və s. vasitəsilə uğurlu reklam işi aparmaq olar.

Qeyd etmək lazımdır ki, müstəqillik illərində Azərbaycanda nəşriyyatların maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir dövrün tələblərinə uyğun olaraq müəyyən hissəsinin informasiya texnologiyası ilə təmin edilməsi, kompyuterləşdirilməsi və internetə qoşulması üçün əlverişli şərait yaradılmışdır. Lakin ölkəmizdə kitab nəşri, yayımı və satışı üzrə qazanılmış müəyyən uğurlara baxmayaraq, bütövlükdə kitab mədəniyyəti sahəsində öz həllini gözləyən nöqsanlar və çatışmazlıqlar hələ də qalmaqdadır.

Qeyd edək ki, müstəqilliyin ilk illərində həyata keçirilən özəlləşdirmənin birinci mərhələsində o vaxtkı Mətbuat və İnformasiya Nazirliyinin əksər müəssisə və obyektlərinin, o cümlədən "Azərkitab"ın mağazalarının, bəzi nəşriyyatlarının bu layihəyə qoşulması vəziyyəti daha da mürəkkəbləşdirdi. Nəşriyyat-poliqrafiya fəaliyyətinə dövlət nəzarətinin zəifləməsi, senzuranın tamamilə aradan qaldırılması, dövlət nəşriyyatlarına və kitab ticarəti müəssisələrinə dövlət təminatının xeyli azalması nəticəsində nəşriyyatların və kitab mağazalarının yerində kitaba dəxli olmayan ayrı-ayrı obyektlər açılıb fəaliyyətə başladı.

İlk dövrlərdə həm dövlət, həm də özəl nəşriyyatların fəaliyyətində müəyyən canlanma hiss olunsa da, əslində bazar iqtisadiyyatına keçidlə bağlı

meydana çıxan problemlər bütövlükdə kitabçılıq işinə, kitab nəşrinə öz mənfi təsirini göstərdi. Əhalinin alıcılıq qabiliyyətinin aşağı düşməsi, başqa ölkələrdən gətirilən kağız və digər poliqrafiya materiallarının qıtlığı, eləcə də bazar iqtisadiyyatına keçid dövründə dövlət təminatından məhrum olan nəşriyyatların bu şəraitdə çeviklik göstərə bilməməsi kitab nəşri və yayımı işinin xeyli geriləməsinə və zəifləməsinə səbəb oldu.

Etiraf etmək lazımdır ki, bu gün Azərbaycan Respublikasının nəşriyyatlar sisteminə daxil olan nəşriyyatların və mətbəələrin 90 faizi tələblərə cavab vermir. İstər paytaxt Bakıda, istərsə də iri şəhərlərdə və rayon mərkəzlərində fəaliyyət göstərən bir neçə nəşriyyat istisna olmaqla onların əksiyyəti yararsız vəziyyətdədir. Bəzi nəşriyyatlar və mətbəələr isə qəza vəziyyətində olan uyğunlaşdırılmamış və yardımçı binalarda, hətta darısqal şəxsi evlərdə və ya həyətyanı sahələrdə fəaliyyət göstərir. Bu səbəbdən nəşriyyatların yeni informasiya-kommunikasiya texnologiyası ilə təminatı və internrtə qoşulması vəsait çatışmazlığı üzündən olduqca ləng gedir. Nəşriyyatların informasiyalaşdırılması sahəsində aparılan işlər ürəkaçan deyil. Nəşriyyatların beynəlxalq əlaqələrinin yaradılması, beynəlxalq assosiasiyalarla əməkdaşlığının təşkili sürətlə qloballaşan dünyanın tələblərindən çox geri qalır.

Müasir informasiya cəmiyyətində kitab-nəşriyyat-oxucu problemi mühüm yer tutur. Doğrudur, informasiya cəmiyyəti şəraitində bəzi ziyalılar internetə və elektron vasitələrə daha çox diqqət yetirməyi, bütün bilikləri elektron vasitələrdən almağın zəruriliyini irəli sürməklə kitabın, kitab nəşrinin əhəmiyyətini azaltmağa çalışırlar. Yadda saxlamaq lazımdır ki, informasiya-kommunikasiya texnologiyaları nə qədər sürətlə inkişaf etsə də, eyni sürətlə cəmiyyət həyatına daxil olsa da, bəşər övladının ən böyük kəşfi olan 5 min yaşlı kitabsız bilik, mədəniyyət, məktəb, maarif qısası heç bir inkişaf yoxdur və ola da bilməz.

Kitab yayımı kitabşünaslığın vacib tərkib hissəsidir. Əgər hər hansı bir kitabın ərsəyə gəlməsi üçün ilk növbədə nəşriyyat fəaliyyətindən keçməsi vacibdirsə, ikinci mərhələdə o, poliqrafik icradan keçir. Təcrübi olaraq anbarlarda toplanıb qalan hazır kitab son ünvana-oxucuya, alıcıya, fiziki və hüquqi şəxslərə, kitabxanalara və digər potensial müştərilərə çatmalıdır. Yalnız kitab ünvana çatdıqdan sonra missiya yerinə yetirilmiş olur. Bu baxımdan kitabşünaslıq fəaliyyətinin son və vacib mərhələsi kitab yayımıdır.

Hər bir nəşriyyat öz məhsullarını yayım etmək məqsədilə bu və ya digər şəkildə fəaliyyət göstərmək məcburiyyətindədir. Bu fəaliyyətin nəzəri əsası çox zaman nəşriyyatın fəaliyyət strategiyasından asılı olur. Nəşriyyat işinin hərtərəfli öyrənilməsi bir daha təsdiq edir ki, dünyanın bütün nəşriyyatları öz çap məhsullarının yayılmasında və təbliğində həmişə maraqlı olmuşlar. Nəşriyyatlar özlərinin bu sahədəki fəaliyyətlərini daha uğurlu həyata





keçirmək məqsədi ilə müxtəlif üsullardan, metodlardan, kitabçılıq işinin zəruri vasitələrindən istifadə etməyə çalışmışdır. Kitabın mövzusunu, məzmununu, ideya istiqamətini, oxucuya təsir dairəsini nəzərə almaqla onun təbliği və yayılması üçün ən zəruri vasitələrdən istifadə edilməsi bütövlükdə nəşriyyatların imicinə müsbət təsir göstərir.

Bu gün də nəşriyyatların fəaliyyətində dövlət sifarişlərini almaq və yerinə yetirmək vacib elementdir. Buraya dövlət sifarişlərinin yerinə yetirilməsi və ya dövlət əhəmiyyətli, dövlətin prioritet saydığı mövzularda ədəbiyyatın sifarişini yerinə yetirmək həm nəşriyyatların ictimai nüfuzunu, həm də maddi-texniki bazasını gücləndirir, onları rəqabət qabiliyyətli edir.

Nəşriyyat-oxucu istiqamətində nəşriyyatların fəaliyyəti istehlak bazarının dərindən öyrənilməsini tələb edir. Bazarın öyrənilmə dərəcəsi risklərin faizini müəyyənləşdirir. Əhalinin sayı, təhsil səviyyəsi, sənayeləşmə və şəhərlərin sayı kitabların tirajını müəyyənləşdirən əsas elementlərdir.

Kitab yayımı Sovet İttifaqında ideoloji fəaliyyət hesab edilirdi. Demokratik cəmiyyətdə də bu, ictimai fəaliyyətdir və bir sıra ölkələrdə dövlət əhəmiyyətli fəaliyyət sahəsi hesab edilir. Hər hansı bir ölkədə kitab mağazasına girməklə həmin ölkənin elmi və bədii ədəbiyyatının real mənzərəsini, nəşriyyat fəaliyyətinin genişliyini, poliqrafiya imkanlarının keyfiyyətini və kitab yayımı mədəniyyətini görmək və qiymətləndirmək olar. Bu baxımdan kitab yayımına bütövlükdə dövlət nəzarəti tənzimlənməsi vacib şərtdir. Bu iş vaxtaşırı həyata keçirilən kitab bazarının monitorinqinin düzgün keçirilməsi və monitorinqdən hansı məqsədlərlə istifadə olunmasını əvvəlcədən müəyyənləşdirməkdir.

Son zamanlar Azərbaycanda kitab yayımı mədəniyyəti sahəsində müəyyən işlər görülmüşdür. Tədris ədəbiyyatının dövlət tərəfindən pulsuz çap etdirilməsi həm kitab bazarındakı gərginliyi aradan götürmüş, həm də nəşriyyatlara sabit sifarişlər təmin edərək onların maddi-texniki bazasını gücləndirmişdir. Respublika Prezidentinin dünya ədəbiyyatı klassiklərinin əsərlərinin latın qrafikası ilə Azərbaycan dilində çap etdirilməsi ilə əlaqədar sərəncam və bu sahəyə ayrılmış maliyyə vəsaiti mütaliə imkanlarını genişləndirmiş, mövcud olan boşluğu doldurmaq istiqamətində faydalı olmuşdur.

Təəssüflə qeyd etməliyik ki, hazırda Azərbaycanda dövriyyədə olan çap məhsulunun ümumi statiktikası, o cümlədən ayrı-ayrı dillər üzrə statistikası, geniş oxucu kütləsinin informasiya və mütaliə uçotu aparılmır. Ona görə də kitab nəşri və yayımı sahəsində dövlət siyasətinin tənzimlənməsində sahə mütəxəssislərinin yardımından bəhrələnməli, kitab bazarında vaxtaşırı monitorinqlərin keçirilməsi, eləcə də layihə və qrantların hazırlanması və s. lazım gəlir. Sovetlər Birliyi dövründə ölkəmizdə kitab ticarətinin vahid sistemi formalaşmışdı. Böyük şəhərlərdə və rayon

mərkəzlərində kitab mağazaları təşkil edilmişdi, kəndlərdə isə kitablar kənd qarışıq mallar mağazalarında satılırdı. Bakıda, Gəncədə, Naxçıvanda, Sumqayıtda və digər iri şəhərlərdə ümumi kitab mağazaları ilə yanaşı, ixtisaslaşmış kitab mağazaları da fəaliyyət göstərirdi. Təkcə Bakı şəhərində 100-dən artıq kitab mağazası var idi. Elə bu qədər kitab mağazası da rayonlarda fəaliyyət göstərirdi. Tirajının böyük olmasına baxmayaraq, nəşr edilən kitablar demək olar ki, satılırdı.

Müstəqilliyin ilk illərində işbazlar özəlləşdirmə adı ilə bütün kitab mağazalarını ələ keçirərək onların binasından başqa məqsədlər üçün istifadə etməyə başladılar. Hazırda Bakı şəhərində cəmi 4-5 kitab mağazası qalmışdır. Əlbəttə, vəziyyətin bu cür formalaşması kitabın yayılmasına ciddi təsir göstərmiş, kitab oxuyanların sayı azalmış, kitab mütaliəsi, ümumiyyətlə, əhalinin mütaliə marağı aşağı səviyyəyə düşmüşdür.

Göstərdiyimiz acınacaqlı vəziyyətin aradan qaldırılması üçün Bakıda, digər şəhərlərdə və kənd rayonlarında tezliklə kitab mağazaları açılmalı, kitabın reklamına və təbliğinə ciddi fikir verilməli, kütləvi informasiya vasitələrində, o cümlədən radio və televiziyada yeni kitablar təbliğ etmək üçün daimi rubrikalar yaradılmalıdır. Təhsil sistemi müəssisələrində, mədəniyyət saraylarında, yaşıl parklarda "Kitab günləri" təşkil edilməli, görkəmli kitab müəllifləri, o cümlədən alimlər, şairlər, yazıçılar, publisistlərlə görüşlər keçirilməli, kitaba, onun tərbiyəvi, elmi əhəmiyyətə dair təbliğat xarakterli kinofilmlər çəkməli, yeni kitabların təqdimat və satış mərasimləri keçirilməlidir. Doğrudur, mütaliəyə marağın azalması bütün dünyanı bürümüş bir meyldir. Bu olduqca təhlükəli meylin qarşısını almaq üçün bir çox ölkələr xüsusi strateji proqramlar qəbul edib, səmərəli üsullar həyata keçirirlər. Bu taleyüklü problemin həllində kitabxanaların mühüm rol oynaya biləcəyini nəzərə alaraq kitabxanaların vəziyyətini yaxşılaşdırmaq, onun oxuculara xidmət işini günün tələbləri səviyyəsinə qaldırmaq zərurəti qaçılmazdır. Məlumdur ki, müasir nəşriyyat, hər şeydən əvvəl, möhkəm maddi-texniki bazaya malik olmalı, müasir informasiya texnologiyaları ilə təchiz edilməlidir. Maddi-texniki baza dedikdə ilk növbədə nəşriyyatların binası göz önünə gəlir. Çox təəssuf ki, nəşriyyat binalarının çoxu müasir tələblərə cavab vermir. Demək olar ki, bütün nəşriyyatlar mövcud iş şəraitinə uyğunlaşdırılmış köhnə binalarda fəaliyyət göstərir. Müstəqillik illərində respublikamızda yeni nümunəvi nəşriyyat binası tikmək mümkün olmamışdır. Yaxın gələcəkdə dünya standartlarına cavab verən müasir nəşriyyat binalarının inşa olunacağını ümidlə gözləyirik. Əlbəttə, respublikamızda nəşriyyat işinin günün tələbləri səviyyəsində təşkilinə mənfi təsir göstərən amillərdən biri də kadr problemidir. Belə ki, kitab nəşrinin təşkili və kitab yayımının səviyyəsi yüksək ixtisaslı, peşəkar kadrlardan çox asılıdır. Müasir informasiya cəmiyyəti şəraitində yüksək ixtisaslı, sürətlə yeniləşən informasiya





texnologiyasından baş çıxaran, cəmiyyətin inkişaf sürəti ilə ayaqlaşan, öz ixtisasını sevən peşəkar naşirlərə böyük ehtiyac vardır. Təəssüf ki, respublikamızın nəşriyyatlarının müasir vəziyyəti bu tələbata cavab vermir. Azərbaycan nəşriyyatlarında, xüsusilə son zamanlar yaranmış özəl nəşriyyatlarda kitabçılıq işini, kitab nəşri fəaliyyətini dərindən bilən peşəkar kadrlar olduqca azdır. Respublikamızda nəşriyyat əməkdaşlarının təxminən 80 faizdən çoxunun kitabşünaslıq və nəşriyyat işi təhsili yoxdur. Müxtəlif ali və orta ixtisas məktəblərini bitirmiş şəxslər öz ixtisasları üzrə iş tapa bilmədikdə nəşriyyatlarda və mətbəələrdə işə düzəlir, ixtisasları üzrə iş tapan kimi bu sahəni atıb gedirlər.

Ona görə də kitab nəşri işi böyük dövlət əhəmiyyətinə malik bir məsələ olduğundan nəşriyyatlar ilk növbədə kitabın ideoloji, elmi, mədəni əhəmiyyətini dərk edən, nəşriyyat fəaliyyətindən başı çıxan mütəxəssis kitabşünas kadrları işə götürməlidir. Ölkəmizdə fəaliyyət göstərən nəşriyyatların direktorları kadrların seçilib yerləşdirilməsinə ciddi fikir verilməli, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsinin "Kitabşünaslıq və nəşriyyat işi" şöbəsini bitirən yüksək ixtisaslı gənc mütəxəssislərin: kitabşünas, nəşriyyat işçisi və redaktor ixtisasına yiyələnən savadlı kadrların potensialından bəhrələnməlidir.

Son zamanlar bir sıra mütəxəssislər inkişaf etmiş ölkələrlə müqayisədə Azərbaycanı fəal oxucusu olmayan ölkə kimi dəyərləndirir, ölkəmizdə indiyədək kitab biznesinin formalaşmamasını da elə bu amillə əlaqələndirirlər. Əhalinin alıcılıq qabiliyyətinin məhdud olması onun kitaba yetərincə pul ayırmasına imkan vermir. Başqa sözlə, fəal oxucu elitası olmadığına görə cəmiyyətdə kitab biznesinin və ya marketinqinin formalaşması prosesi də ləng getsə də olduqca gərəkli və faydalı bir sahədir. Ona görə də bu sahənin inkişafına, kitab bazarının yaranmasına, kitab biznesinin formalaşmasına dövlət qayğısı lazım gəlir. Azərbaycan kitab istehasalı üçün lazım gələn bütün avadanlıq və materiallar, yəni kağızdan tutmuş boyaya qədər hamısı xaricdən gətirilir. Azərbaycana əsasən Rusiyadan, qismən Türkiyə, İran və bizi Avropa ölkələrindən xeyli çap məhsulları gətirilir. Lakin gömrük haqqı baha olduğuna görə ölkəyə gətirilən kitabların satışında problemlər yaranır. Fikrimizcə, kitab idxalı gömrükdən azad olunarsa, bu sahənin inkişafına şərait yaranar.

Beləliklə, kitab nəşri və yayımı işinin son dövr fəaliyyətinin təhlili və ümumiləşdirilməsi əsasında belə qənaətə gəlmək olar ki, bütün dünyada olduğu kimi, respublikamızda da son illərdə mütaliəyə münasibət dəyişmiş, mütaliənin səviyyəsi aşağı düşmüş, oxucuların sayı xeyli azalmışdır. Kitabın yenidən hər bir evə, hər bir ailəyə daxil olması üçün dövlət bu intellektual infrastrukturu daim diqqət mərkəzində saxlamalıdır. Kitab-oxucu-nəşriyyat-müəllif formulu sonda intellektual cəmiyyət kompleksi yaradır. Ona görə də bu problem kompleks şəkildə həll olunmalıdır. Unutmaq lazım deyil ki,

kitabla ünsiyyətin azalması mütaliə səviyyəsinin aşağı düşməsi cəmiyyətə mənfi təsir göstərən əsas amillər sırasındadır. Bu təsir zaman baxımından özünü xeyli gec biruzə versə də, nəticəsi acınacaqlı ola bilər. Bu acınacaqlı vəziyyətin uzun müddət davam etməsi isə gələcəkdə millətin faciəsinə çevrilə bilər.

Beləliklə, Azərbaycan Respublikasında kitab nəşri və yayımı işini günün tələbləri səviyyəsinə qaldırmaq üçün dövlət səviyyəsində ciddi tədbirlər görülməli, lazımi islahatlar aparılmalı, oxucunun kitaba, kitabı oxucuya,bütövlükdə kitabı cəmiyyətə, cəmiyyəti kitaba qaytarmağın yeganə yolu kimi kompleks proqram qəbul edilməlidir. Eyni zamanda kitab bizi gələcəyə aparan ən mühüm və ən qüdrətli vasitədir. Kitab nəşri milli mədəniyyətin tərkib hissələri olduğuna görə Mədəniyyət və Turizm Nazirliyi nəzdində həm dövlət, həm də özəl nəşriyyatların fəaliyyətini əlaqələndirmək, işlərini istiqamətləndirmək, onlara müəyyən kömək göstərmək məqsədilə monitorinq qrupunun və ya digər bir qurumun yaradılması məqsədə uyğun ola bilər. Fikrimizcə, bu istər kitab nəşrini, istərsə də, kitab yayımını təmzimləməyə və uzlaşdırmağa imkan yarada bilər. Çünki kitab bizi gələcəyə aparan ən mühüm və ən qüdrətli vasitədir.

## ƏDƏBİYYAT

1. *Azərbaycan kitabı (Biblioqrafiya)3 cilddə, I cild. Bakı, 1963.*
2. *Azərbaycan tarixi (ən qədim zamanlardan XX əsrədək). I cild.- Bakı, 1994. 64 c.*
3. *Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi.-Bakı, 1998, 72 c.*
4. *Fəlsəfə.-Bakı, 1997, 340 c.*
5. *Əli Polad. Üç min ilin hikməti. Bakı, 2007. 337 c.*
6. *Xələfov Ə. Mütaliə mədəniyyəti haqqında.-B, 1965, 29 s.*
7. *Xələfov A.A. Azərbaycanda ali kitabxanaçılıq təhsili.- Bakı, 1998, 12 c.*
8. *Xələfov A.A.Kitabxanaşünaslığa giriş. I hissə.-Bakı, 2001, 398 c.*
9. *Xələfov A.A.Kitabxanaşünaslığa giriş. II hissə.-Bakı, 2003, 314 c.*
10. *Xələfov A.A.Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktorinası uğurla davam*
11. *İnsan və cəmiyyət.-Bakı, 1994 c. 5*





## КНИГА И ОБЩЕСТВО

А.А.ХАЛАФОВ

*РЕЗЮМЕ*

*Статья рассматривает проблему зваимосвязи библиотек и общества, изучает историчиский опыт и анализирует современные прблемы библиотек как главным организатором общественного чтение с привлечением современных элoктронных и технических средств.*

***Ключевые слова:*** *библиотека и общество, библиотека и коммуникация, библиотека и чтение.*

## BOOK AND SOCIETY

PROF A.A.KHALAFOV

*SUMMARY*

*Connection of the Library and the society learning history experiment and Analysing modern problem of library as organizing social reading with electron and technician means considered in the article.*

***Key words****: Library and Society, Library and communication, Library and reading*